

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 209 (21.619)

4 noyabr 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik





## Birləşmiş Ərəb Əmirliklərinin “Əl-Fəcr” qəzetində Heydər Əliyev Muzeyi ilə bağlı məqalə dərc olunub

Bu il 4-9 oktyabr tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin tanınmış “Əl-Fəcr” qəzetinin baş redaktoru Şərif Əl-Bəsil Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında səfərdə olub. Noyabrın 2-də baş redaktor Şərif Əl-Bəsilin “Əl-Fəcr” qəzetində “Böyük işləri böyük şəxsiyyətlər yaradırlar. Heydər Əliyev Muzeyi. Naxçıvanda Azərbaycan adında Vətənin işıqlı xatirəsi” sərlövhəli məqaləsi qəzetin çap və elektron nüsxələrində işıq üzü görüb.

Məqalədə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərinə aid fotoşəkillər yerləşdirilib. Şərif Əl-Bəsil məqalənin girişində haşiyə çıxaraq yazır: “Fenomenal insan. Nailiyyətləri dağlar boydadır. Zirvə ONUN yanına gəlməyib. Məhz ÖZÜ zirvəni fəth edib. Öz səyləri və yorulmaz fəaliyyəti ilə davamlı və sərhəd tanımayan uğurlara imza atmaqla şan-şöhrət qazanıb, yüksək postlar tutub. Doğma Vətəni və ölkəsinin gələcəyi naminə öz əzmkarlıq, israr və hərtərəfli düşüncəsinin məhsulu olan hədəfləri müəyyənləşdirərək yerinə yetirib. Xalqı onun quruculuq və inkişafdakı önəmli roluna inanırdı. O insan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevdir. Ulu öndər prezidentliyi dönəmində Vətənin inkişafı və xalqa xidmət niyyətini daşıyan ali missiyanı həyata keçirib. Azərbaycan xalqı ümumən və Naxçıvan əhalisi xüsusən dövlətin qurucusu olan ulu öndər Heydər Əliyevlə fəxr etmək və xatirəsini yüksək tutmaq haqqına sahibdir. Çünki Heydər Əliyev Azərbaycanın müstəqilliyini irəliyə aparıb, bütün dünyanın gözü önündə ölkəsini unikal inkişaf və intibaha qovuşdurub. Dahi şəxsiyyətin əziz xatirəsi Vətənin hər qarışında əbədiləşdirilib və xalqın qəlbində yaşayır. Ulu öndərin Vətəni naminə fəaliyyətinin əbədiləşdirilməsi məqsədilə doğulduğu Naxçıvanda adını daşıyan muzey təsis edilib”.

Oxuculara ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti barədə məlumat verən müəllif diqqətə çatdırır ki, uşaqlıqdan incəsənətə meyil göstərən ulu öndər sonrakı dövrdə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) Memarlıq fakültəsində təhsil alır. Təhsilini başa vurduqdan sonra dahi rəhbər Heydər Əliyev dövlət təhlükəsizlik orqanlarında işə başlayır və bu sahədə ali vəzifələrə yüksəlir. Sovet İttifaqı dövründə Azərbaycana rəhbərliyi əsnasında aparılan geniş tikinti-quruculuq işləri zamanı memarlıq sahəsində əldə etdiyi biliklərə arxalanaraq, memarlara öz tövsiyələrini verir. Ümummilli lider Heydər Əliyev SSRİ dönəmində ali postlardan biri hesab edilən SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini icra edən yeganə müsəlman idi.

Məqalədə Heydər Əliyev Muzeyindən söhbət açan Şərif Əl-Bəsil bu mədəniyyət ocağının 1999-cu ildə yaradıldığını qeyd edir. Muzeyin ulu öndər Heydər Əliyevin irsini özündə ehtiva etdiyi, burada ümummilli liderin Azərbaycana və Naxçıvana rəhbərliyi dövrünə aid eksponatların nümayiş olunduğu, məhz Heydər Əliyevin hakimiyyəti illərində ölkənin əsaslı inkişafa qovuşduğu diqqətə çatdırılır. Məqalənin müəllifi muzeydə ulu öndərin həyatına, fəaliyyətinə və ölkəsinin müstəqilliyi uğrunda gördüyü işlərə həsr olunmuş kitablardan ibarət kitabxananın yerləşdiyini bildirir. Bu kitablarda Şərq dövlətləri ilə əlaqələrin strategiyası, o cümlədən İslam dövlətlərinin rəhbərləri ilə görüşlər barədə məlumatların olduğundan bəhs edir.

Muzeydə ümummilli lider Heydər Əliyevin ordu quruculuğu və digər sahələrdə gördüyü işləri əks etdirən sənədli filmlərin saxlandığını da qeyd edən Şərif Əl-Bəsil eyni zamanda ulu öndərin öz xətti ilə yazdığı, Vətəninə sevgisini ifadə edən sənədlərin yer aldığını, Azərbaycanın müstəqilliyə qovuşacağına hər zaman inanan ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən ordu quruculuğu, iqtisadiyyat və digər sahələrdə qəbul etdiyi mühüm qərarlar toplusunun nümayiş etdirildiyini qeyd edib.

Məqalənin sonunda Vətəninə böyük məhəbbətin dahi şəxsiyyət Heydər Əliyevə hədsiz xalq sevgisi qazandırdığı oxucunun nəzərinə çatdırılır.

---

*Misir Ərəb Respublikasının Azərbaycandakı Səfirliyinin mədəniyyət attaşesi, Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin müdiri Əhməd Sami Elaydi Naxçıvan Dövlət Universitetində olub.*

## Naxçıvan Dövlət Universitetinin Misir universitetləri ilə əlaqələri genişləndirilir

Universitetlə tanışlıq zamanı qonaq İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzində müasir elektron təhsil şəbəkəsinin idarə olunması prosesini izləyib. Qonağa universitetin Media Mərkəzi, buraya daxil olan Universitet televiziyası, “Nuhçıxan” radiosu haqqında ətraflı məlumat verilib. Əhməd Sami Elaydi tədris ocağının Elmi kitabxanası ilə də tanış olub.

Sonra Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin Ərəb dili ixtisasının müəllim və tələbələri ilə görüş keçirilib.

Universitetin tədris işləri üzrə prorektoru, dosent Surə Seyid tədbir iştirakçılarına qonaq haqqında məlumat verərək bildirib ki, Əhməd Sami Elaydi Misirin Ayn-Şəms Universitetinin Ədəbiyyat fakültəsinin məzunudur. Həmin universitetin Türk dili və ədəbiyyatı kafedrasında çalışıb. 1998-ci ildən etibarən ali məktəbdə Azərbaycan dili tədris olunmağa başlanılıb və o, Azərbaycan dilini öyrənib. 2000-ci ildə Ayn-Şəms Universitetinin Şərq dilləri bölməsinin Türk dili şöbəsini bitirib, 2006-cı ildə həmin universitetin Türk dili şöbəsində “Qaçaq Nəbi dastanı və XIX əsrin ikinci yarısında Rusiya-Azərbaycan çəkişməsi” mövzusunda magistr dissertasiyası, 2010-cu ildə Bakı Dövlət Universitetində “Müstəqillik dövrü Azərbaycan romanı: mövzu, problematika və sənətkarlıq məsələləri” adlı dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. 30-dan çox Azərbaycan yazıçısının yaradıcılığını tədqiq edib, 100-dən çox tələbəyə Azərbaycan dilini öyrədib.

Prorektor ali təhsil ocağının beynəlxalq əlaqələri, beynəlxalq əməkdaşlıq proqramları çərçivəsində həyata keçirilən layihələrdən danışaraq bildirib ki, ali məktəb 80-dən çox tanınmış dünya universiteti ilə tərəfdaşlıq etməklə yanaşı, bir sıra beynəlxalq layihələrdə də uğurla təmsil olunur.

Əhməd Sami Elaydi Ayn-Şəms Universiteti haqqında ətraflı məlumat verib. Misir Ərəb Respublikasının Azərbaycandakı Səfirliyinin mədəniyyət attaşesi Azərbaycanın, eləcə də Naxçıvan Muxtar Respublikasının universitetləri ilə Misir universitetləri arasında elm və təhsil əlaqələrinin möhkəmləndirilməsində, qarşılıqlı müəllim-tələbə mübadiləsinin həyata keçirilməsində maraqlı olduqlarını və bu istiqamətdə səylərini əsirgəməyəcəklərini diqqətə çatdırıb.

Əhməd Sami Elaydi tələbələri maraqlandıran sualları cavablandırıb.

**Nərmin CABBAROVA**

## Naxçıvanda təhsilin inkişafına hərtərəfli qayğı göstərilir

***Muxtar respublikada təhsil davamlı və müasir tələblər səviyyəsində inkişaf etdirilir. Yeni məktəb binalarının istifadəyə verilməsi, müasir tədris şəraitinin yaradılması tədrisin keyfiyyətini yüksəltmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı müvafiq sərəncamlar bu sahənin inkişafında yeni mərhələnin əsasını qoymuşdur.***

Bu sahədə həyata keçirilən tədbirlər oktyabr ayında da davam etdirilmiş, Gülüstan və Baş Dizə kənd tam orta məktəblərinin, Naxçıvan Dövlət Texniki Kollecinin yeni binaları istifadəyə verilmişdir. Bu dövrdə Hüseyn Cavidin ev-muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi və Naxçıvan Dövlət Tarix Muzeyi ilə ümumtəhsil məktəbləri arasında əlaqə yaradılmış və distant dərslər keçirilmişdir. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, “Naxçıvan” Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və orta ixtisas təhsili müəssisələrində çalışan elmi dərəcəli müəllimlər tərəfindən ötən ay ümumtəhsil məktəblərində 182 saat nümunəvi dərs tədris olunmuşdur. Muxtar respublikanın ümumtəhsil məktəblərində 170 məktəbəhazırlıq qrupu yaradılmış, bu qruplarda 2861 uşağın iştirakı təmin edilmişdir. Bu dövrdə sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi sahəsində görülən işlər də davam etdirilmiş, distant təhsilə cəlb olunmuş 24 sağlamlıq imkanları məhdud uşaq və gözdən əlil uşaqlar üçün xüsusi ibtidai məktəbdə təhsil alan 8 uşaq dərs ləvazimatları ilə təmin olunmuşdur.

Ümumtəhsil məktəblərində dəqiq elmləri tədris edən müəllimlərin təkmilləşdirmə kurslarında iştirakı vacib məsələdir. Oktyabr ayında bu məsələ diqqətdə saxlanılmış, ümumtəhsil məktəblərində fizika fənnini tədris edən müəllimlərin iştirakı ilə Naxçıvan Dövlət Universitetində seminar keçirilmişdir.

Muxtar respublikada peşə təhsilinin inkişafı sahəsində ardıcıl tədbirlər görülür, ən müasir maddi-texniki bazaya malik peşə məktəbləri tikilərək istifadəyə verilir. Bu da peşə təhsilinə marağın artmasına səbəb olmuşdur. Oktyabr ayında Naxçıvan Peşə Liseyindən 37, Şərur Texniki Peşə və Sürücülük Məktəbindən 18, Ordubad Texniki Peşə və Sürücülük Məktəbindən 40 müdavim qazanxana maşinisti peşəsi üzrə, Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbindən isə sürücülük kursu üzrə 92 müdavim təhsillərini başa vurmuşlar.

Şagirdlərin bilik və bacarıqlarının yoxlanılması məqsədilə bu tədris ilinin ilk sınaq-test imtahanı keçirilmişdir. 17-18 oktyabr tarixlərində isə basketbol, şahmat, yüngül atletika, “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü üzrə məktəblilərin spartakiadası təşkil olunmuşdur. Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü münasibətilə isə təhsil müəssisələrində şahmat üzrə rayon (şəhər) birincilikləri, şeir müsabiqələri, idman yarışları, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında ekstremal turizm yürüşü üzrə Naxçıvan Muxtar Respublika birinciliyi keçirilmişdir. “Naxçıvanı tanıyaq” devizi altında ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri Gülüstan türbəsində ekskursiyada olmuşlar.

Naxçıvan Dövlət Televiziyası tərəfindən Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbdənkənar tərbiyə müəssisələrində dərnəklərin fəaliyyəti ilə bağlı yayımlanan materialda qeyd olunan nöqsanlar aradan qaldırılmışdır. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi bundan sonra da dövlət proqramları və tapşırıqların icrasını diqqət mərkəzində saxlayacaqdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Məktəb binasında son tamamlama işləri aparılır

***Naxçıvan Muxtar Respublikasında son illərin quruculuq xəritəsində ən önəmli yeri məktəb binalarının inşası tutur.***

Çünki hər bir xalqın firavan gələcəyi, ilk növbədə, təhsildən, savadlı gənclərdən asılıdır. Bu səbəbdəndir ki, bu gün diyarımızın hər bir bölgəsində yeni məktəb binaları tikilir, mövcud binalar yenidən qurulur, onların maddi-texniki bazası gücləndirilir. Belə tikinti-quruculuq tədbirlərindən Şahbuz rayonuna da xeyli pay düşüb. Rayonun əksər kənd yaşayış məntəqələrində aparılan məktəb quruculuğuna cari ildə Daylaqlı kənd tam orta məktəbi də əlavə olunub. Bu iş Kolanıda davam etdirilir. Belə ki, hazırda sözügedən kənddə təhsil ocağı üçün yeni bina tikilir. Tikinti işləri Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Babək Rayon İdarəsinə həvalə olunub. İdarənin rəisi Rəvayət İmanovdan aldığımız məlumata görə, obyektin inşasına cari ilin may ayının əvvəllərindən başlanılıb və artıq əsas işlər görülüb.

Üçmərtəbəli məktəb binası 360 şagird yerlikdir. Təhsil ocağında 20 sinif otağı, üç elektron lövhəli sinif, üç laboratoriya, kompüter sinfi, fənn kabinələri və idman zalı yaradılıb.

Hazırda obyektdə son tamamlama işləri görülür. Yaxın günlərdə Kolanı kənd tam orta məktəbi də muxtar respublikanın əksər kəndlərində tikilən, müasirliyi ilə gözoxşayan, maddi-texniki bazası ilə tədrisin səviyyəsini yüksəldən məktəblər sırasına qoşulacaq.

**Hafizə ƏLİYEVA**

*Hər dəfə təyyarədən enərkən ayağımı basdığım torpaq, içimə çəkdiyim hava, şirin ləhcələri ilə bizi qarşılayan insanlar mənə o qədər doğmadır ki... Bəlkə də elə buna görədir ki, doğulub boya-başa çatdığım, ata-babalarımın uyuduğu o torpaqlara – Naxçıvana tez-tez gedirəm. Təbii ki, hər bir bölgəsi mənim üçün müqəddəs olan Azərbaycanın, doğma Vətənimin ayrılmaz hissəsi – Naxçıvanın hər daşı, zərrəsi mənə çox əzizdir.*

# Yeniləşən, müasirləşən qədim diyar: *Ulu Naxçıvan*



Həyatımın ən yaddaqalan illəri bu yerlərdə keçib. Naxçıvana budəfəki səfərimiz fərqli idi. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə Azərbaycanın 20 aparıcı mətbu orqanının rəhbərləri ilə növbəti səfərimiz reallaşırdı. Baş redaktorlardan bəziləri Naxçıvana ilk dəfə, bir çoxları isə uzun fasilədən sonra növbəti səfərə gəlmişdilər.

Hər dəfə əsas yoldan ayrılıb doğma kəndimizə – Saltağa doğru enərkən, nədənsə, evimizə – ata ocağına tələsirəm... Qarşımda əzəmətli Haçadağ, o qədər də geniş olmayan döngələr, işıq dirəklərinin başında yuva salan leyləklər mənə uşaqlığımı xatırladır. Köhnə hasarlar, tozlu-torpaqlı yollar, sınıq-salxaq körpü, məktəb illərini keçirdiyimiz kiçik, birmərtəbəli bina artıq tarixə qovuşub. Dəyişən çox şey var. Kəndimizin girişindən sonuna qədər uzanan yeni, müasir asfalt yol, Əlincəçay üzərində qurulan geniş və əzəmətli körpü, yenilənən hasarlar, bir neçə ay bundan əvvəl istifadəyə verilən dördmərtəbəli müasir orta məktəb binası, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri, su dəyirmanı və digər obyektlər, təbii ki, insanların daha rahat və mükəmməl həyat şəraitinin təmin edilməsi üçündür.

Bu görkəm artıq Naxçıvanın bütün kəndlərinin simasıdır. Yəni bütün kəndlərdə müasir orta məktəblər, kənd mərkəzləri, körpülər, yeni yollar inşa olunub, abadlıq-quruculuq işləri aparılıb.

Naxçıvan qədim və zəngin tarixə, mədəniyyətə malikdir, havası təmiz, iqlimi – yayı isti, qışı isə bir o qədər də sərt, insanları dürüst, istiqanlı, qonaqpərvərdir. Bunu təkcə mən yox, muxtar respublikaya səfər edən hər kəs görür, duyur və etiraf edir.

Naxçıvan Beynəlxalq Hava Limanından yerləşəcəyimiz "Təbriz" otelinə doğru hərəkət etdikcə uzanan geniş və təmiz yollar, müasir tikililər, ümumilikdə, şəhərin nizam-intizamlı ab-havası hansısa Avropa şəhərini xatırladırdı. Reallıq budur ki, muxtar respublikada ictimai-siyasi sabitlik hökm sürür, sosial-iqtisadi inkişaf günbəgün sürətlənir. Başlanan hər yeni gündə Naxçıvanın şəhər və kəndlərində, bölgələrində müsbət mənada yeniliklər baş verir. Yerləşdiyimiz "Təbriz" oteli isə belə yeniliklərin, sadəcə, kiçik bir hissəsidir. Burada Avropanın 5 ulduzlu otellərindən geri qalmayan, hətta daha üstün və mükəmməl şərait yaradılıb. Təcrübəli personal isə qüsursuz xidməti ilə müştərilərin bütün arzu və istəklərini yerinə yetirməyə hazırdır.

Səfər proqramımız ilk olaraq ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış əzəmətli abidəsini ziyarət etməklə başladı. Daha sonra görkəmli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin həyatı və siyasi fəaliyyətini əks etdirən muzeydə olduq. Burada nümayiş olunan zəngin eksponatlar ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirməklə yanaşı, xalqını, dövlətini, Vətənini, millətini nə qədər sevdiyini və bu torpağa bağlılığını bir daha təsdiqləyir.

Naxçıvanın qədimliyini əks etdirən məkanlardan biri də Əlincəqala tarixi abidəsidir. Əlincəqala muxtar respublikanın yenilməzlik simvoluna çevrilib. Həmkarlarımla birlikdə dağın zirvəsinə doğru uzanan daş pillələri qalxdıqca sanki tarixin yenidən canlandığını duyurduq. Son illər burada aparılan tikinti-quruculuq işləri, yaradılan şərait Əlincəqalaya gələn insanların ürəyincədir. Tarixi abidə bir neçə il bundan əvvəl Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı əsasında bərpa edilib. Burada "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi üçün yeni bina tikilib. Ekspozisiya zalında Əlincəqalada məskunlaşan insanların həyatını əks etdirən nümunələr, qədim əşyalar nümayiş olunur. Bərpa işləri zamanı tarixiliyin qorunub saxlanılmasına xüsusi diqqət yetirilib. Divarlar, bürc və giriş qapıları, qədim yaşayış evləri, su hovuzları, təndirlər bərpa edilib. İnsanların rahat hərəkəti üçün zirvəyə yeni yol çəkilib, möhtəşəm işıqlandırma sistemi qurulub, yaşıllıq salınıb. Bir sözlə, Azərbaycanın tarixi-mədəni irsini özündə əks etdirən qala qədimliyini saxlamaqla yeni görkəm alıb. Əlincəqalanın zirvəsində dalğalanan üçrəngli Azərbaycan bayrağı isə insanda sonsuz qürur hissi yaradır. Sözsüz ki, bu istiqamətdə görülən işlər Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında müstəsna əhəmiyyət daşıyır. Çünki hələ bundan sonra uzun illər boyu Əlincəqalanı görmək üçün Naxçıvana gələn yerli və xarici turistlər qədim tariximizin canlı şahidləri olacaqlar.

Naxçıvanın özünəməxsusluğunu əks etdirən əsas məqamlardan biri onun tarixi abidələrlə zəngin olmasıdır. Həmkarlarımla birlikdə Culfa rayonu ərazisində yerləşən Gülüstan türbəsinə səfər də yaddaqalan oldu. 2015-ci ildə bərpa edilən, nəinki Azərbaycanın, hətta dünyanın tarix və mədəniyyət abidələrindən biri sayılan türbə media rəhbərlərində böyük maraq doğurdu. Abidənin səthi oyma həndəsi ornamentlər və dekorativ tağlarla bəzədilib. Türbə zərifliyi, mükəmməl memarlıq üslubu ilə göz oxşayır. Abidənin yerləşdiyi ərazinin tarixi, mədəni əhəmiyyəti nəzərə alınaraq, burada "Gülüstan" Tarix-Mədəniyyət Qoruğu yaradılıb.

Səfər proqramında "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksini ziyarət və Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq da yer almışdı. Naxçıvana gedəndə Əshabi-Kəhf ziyarətgahında olmamaq mümkün deyil. Çünki bu sirli məkan istər yerli, istərsə də xarici turistlərin hər zaman diqqət mərkəzində olub. Son illərdə "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində yaradılan şərait ziyarətçilərin dağların dərinliyinə doğru uzanan çətin və keçilməz yolunu asanlaşdırıb. İnsanlar müqəddəs kitabımız olan "Qurani-Kərim"də adıçəkilən bu məkanı ziyarət edərək qurban kəsir, Allaha dualar edir, Naxçıvanın tarixinin və mədəniyyətinin qədimliyinin bir daha şahidi olurlar. Müşahidələrim zamanı media rəhbərlərinin Əshabi-Kəhflə tanış olarkən müsbət mənada təsirləndiyini gördüm. Doğrudan da, tarixi və dini baxımdan bu qədim, əsrarəngiz məkan insanı saflaşdırır, müqəddəs inanclarımıza daha möhkəm bağlılığa sövq edir.

Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq da həmkarlarımın yaddaşında xoş xatirələrlə qaldı. Artıq bir çoxu yenidən buraya gəlmək və mərkəzdən faydalanmaqla bağlı planlar qurub. Çünki Duzdağ Fizioterapiya Mərkəzi, həqiqətən də, unikal məkandır. Təbii müalicənin ən doğru ünvanlarından biri sayılan mərkəzə gələn hər kəs burada şəfa tapır, daha sağlam və gümrah şəkildə evinə qayıdır. Təsadüfi deyildi ki, həmkarlarım Duzdağ Fizioterapiya Mərkəzi haqqında məlumatları maraqla dinləyir, burada yaradılan şəraitlə bağlı heyrətlərini gizlədə bilmirdilər.

Səfər zamanı "Arıçılıq məhsulları – bal festivalı"nın keçirildiyi "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində Naxçıvanın müxtəlif bölgələrində istehsal olunan bal məhsulları sərgisi ilə tanışlıq da maraqlı oldu. Festivala Naxçıvanın 210 arıçısı tərəfindən 10 tondan artıq bal, bərəmum, çiçək tozcuğu, güləm, arı südü və digər arı məhsulları çıxarılmışdı. Bu amil isə, təbii ki, muxtar respublikanın iqtisadi inkişafından, xüsusilə özünün ərzaq təhlükəsizliyini yüksək səviyyədə təmin etməsindən xəbər verir. Statistik məlumatlara görə, Naxçıvanda yanvar-sentyabr aylarında ümumi daxili məhsulun həcmi 1 milyard 831 milyon manatdan çox olub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz çoxdur. Hər nəfərə düşən ÜDM-in həcmi ötən ilin müvafiq dövrünə nisbətən 3,4 faiz artaraq 4 min 103 manat olub. 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar-sentyabr aylarında sənaye məhsulunun həcmi 2,5 faiz, əsas kapitala yönəldilən investisiyalar 7 faiz, kənd təsərrüfatının ümumi məhsulu 6,1 faiz, pərakəndə əmtəə dövriyyəsi 2,8 faiz, əhaliyə göstərilən pullu xidmətlər 4,1 faiz, ixracın həcmi 1,9 faiz, əhalinin gəlirləri 1,3 faiz çoxalıb. Rəqəmlərdən də göründüyü kimi, blokada şəraitində olmasına baxmayaraq, Naxçıvan inkişaf tempini qoruyub saxlayır.

Bu gün Naxçıvanda Heydər Əliyev ideyaları uğurla davam etdirilir. Möhtərəm Prezidentimiz İlham Əliyev muxtar respublikaya səfərləri zamanı yeni obyektlərin açılışında iştirak etməklə, müvafiq tapşırıq və tövsiyələrini verməklə yanaşı, görülən işlərdən razılığını da ifadə edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov isə yorulmaz və səmərəli fəaliyyəti ilə Naxçıvanı uğurla irəli aparır.

KİV rəhbərlərinin muxtar respublikaya səfəri zamanı Naxçıvan Xalça Muzeyi, Naxçıvan Biznes Mərkəzi, Naxçıvan Dövlət Universitetinin Media Mərkəzi, Dövlət Bayrağı Meydanı və Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, Xalq şairi Məmməd Arazın Şahbuz rayonunun Nursu kəndində yerləşən ev-muzeyi, Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi, "Şərq qapısı" qəzetinin redaksiyası ilə tanışlıq kifayət qədər xoş xatirələrlə yadda qaldı.

Şübhəsiz ki, qoca Şərqin qapısı hələ bundan sonra tez-tez döyüləcək və bu müqəddəs məkan öz ziyarətçilərini gülərüz qarşıladığı kimi, elə gülərüz də yola salacaq...

**Vüqar RƏHİMZADƏ**
***"İki sahil" qəzetinin baş redaktoru,***
***Əməkdar jurnalist***
***28.10.2016***

# *"Naxçıvan Məhsulları"* Məhdud Məsuliyyətli Cəmiyyəti yerli brendlərin yaradılması istiqamətində iş aparır




*Muxtar respublikamızda iqtisadiyyatın inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi müxtəlif növdə və çeşiddə məhsulların istehsalı üçün əlverişli şərait yaradıb. İstehsal yeri Naxçıvan olan hər bir məhsulun keyfiyyətinə yüz faiz təminat verildiyi bir dövrdə bu məhsulların brendləşdirilərək satışa çıxarılması və ixrac olunması artıq günün tələbinə çevrilib. Yeni fəaliyyətə başlamış "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti də bu istiqamətdə qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində mühüm işlər görür.*

Hər yeni biznes müəyyən ideyanın məhsuludur. "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılmasında məqsəd muxtar respublikada yerli istehsalçıların fəaliyyətinin stimullaşdırılması, istehsal olunan məhsulların reklam və təşviqi, məhsulların keyfiyyətinin, rəqabətə davamlılığının, xarici bazarlara ixracının artırılması sahəsində infrastruktur təminatının yaxşılaşdırılması, yerli brendlərin yaradılması, Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsinin vəsaitləri hesabına maliyyələşən müəssisə və təşkilatların ərzaq məhsulları ilə təchizatının həyata keçirilməsindən ibarətdir. Bu məqsədlə hələ 2015-ci ildə "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilib, müəssisənin istehsal etdiyi bir sıra məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanıb. Müəssisədə istifadəyə verilən makaron istehsalı, bal, pendir və yabanı tərəvəz məhsullarının qablaşdırılması sahələri muxtar respublikada fəaliyyət göstərən heyvandarlıq və arıçılıq təsərrüfatlarının məhsullarının emal prosesinə cəlb edilməsinə, kənd əhalisinin səmərəli məşğulluğuna stimul verir.

Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması daim diqqət mərkəzində saxlanılır. Daxili bazarda idxal mənşəli məhsulların dövriyyəsinin yerli məhsullar hesabına azaldılması, Naxçıvan brendi ilə tanınan məhsullara üstünlük verilməsi həmişə prioritet məsələ olub. Oktyabrın 31-də "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün inşa olunmuş istehsal sahələri və anbarın istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə bu məsələnin əhəmiyyətinə diqqət çəkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri daxili bazarın və dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatların ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi, muxtar respublikada istehsal olunan məhsulların Naxçıvan brendi ilə xarici bazarlara çıxarılması və tanıdılması tapşırığını verib. Göründüyü kimi, müasir dövrdə ərzaq təhlükəsizliyi məsələləri dövlətin ali məqsədlərə xidmət edən vəzifələri arasında öz yerini saxlamaqdadır.

Müasir dövrdə naxçıvanlı iş adamları hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün də belə əlverişli iş imkanları yaradılıb. Belə ki, müəssisəyə öz fəaliyyətini genişləndirmək üçün Sahibkarlığa Kömək Fondu tərəfindən 511 min manat güzəştli kredit vəsaiti ayrılıb, tikinti-quraşdırma işlərinə 125 min manat, avadanlıqların və nəqliyyat vasitələrinin alınmasına 192 min manat vəsait sərf olunub. Burada Türkiyə Respublikasının istehsalı olan müasir avadanlıqlar quraşdırılıb ki, bu da yüksəkkeyfiyyətli məhsul istehsalına zəmin yaradır. Müəssisədə istifadədə olan istehsal sahələri ilə yanaşı, 2 ehtiyat istehsal sahəsi, 3 iş otağı və xidməti otaqlar yaradılıb. Təchizat və satış məqsədi üçün 5 yük avtomobili və 1 avtoyükləyici də alınıb. Hazırda burada 30 nəfər işlə təmin olunub və gələcəkdə iş yerlərinin sayının 50-yə çatdırılması nəzərdə tutulub. Burada orta aylıq əməkhaqqı 374 manat təşkil edir. Müəssisədə çalışan işçilər pulsuz nahar yeməyi, xüsusi geyim forması və nəqliyyat xidməti ilə təmin olunurlar.

Göstərilən diqqət və dövlət qayğısı onun ifadəsidir ki, "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin səmərəli fəaliyyəti üçün hər bir şərait yaradılıb. Müəssisənin hazırkı iş həcmi də belə deməyə əsas verir. Belə ki, artıq cəmiyyət tərəfindən 102-si təhsil müəssisələrində yerləşən iaşə obyektləri olmaqla, 151 idarə, müəssisə və təşkilatın ərzaq təchizatı həyata keçirilir.

✍ **Əli CABBAROV**

# Naxçıvan tarixinə səyahət

*Naxçıvan Muxtar Respublikası XI-XVII əsrlərə aid bir sıra mühüm mədəni dəyərlər aspektindən Azərbaycan Respublikasının tarixi xüsusiyyətlərini və arxeoloji abidələrini özündə ehtiva edir.*

Naxçıvandakı XI-XVII əsrlərə aid zəngin mədəni abidələr Qafqaz regionunda baş vermiş siyasi, iqtisadi və mədəni proseslərə şahid olub və bütövlükdə Azərbaycanın orta əsr tarixini özündə cəmləşdirir. Xarabaşəhər, Xıncab qəbiristanlığı, Astabad nekropolu, Aza körpüsü, Gənzə qəbiristanlığı və Xaraba karvansaray abidələri ərazidə olan mühüm mədəni abidələrdən bəziləridir.

XII əsrə aid yaşayış ərazisi olan Xarabaşəhər XVII əsrə qədər mühüm ticarət mərkəzi olmuşdur. Xarabaşəhər Naxçıvan şəhərinin Qaraçuq kəndinin yaxınlığında yerləşir və 40 hektar ərazini əhatə edir. 1960-cı ilin əvvəllərində bu tarixi yaşayış məskənində azərbaycanlı və beynəlxalq arxeoloqlar tərəfindən qazıntı işləri aparılmış və oradan divar qalıqları, metal kənd təsərrüfatı məmulatları (nal, bıçaq və digər kənd təsərrüfatı alətləri) aşkar edilmişdir. Bunlardan başqa, ərazidən dəmirçixana, məişət və təsərrüfat əşyaları, Elxani sikkələri, bəzək əşyaları, şirli və şirsiz gil qablar, rəngli şüşə, dəri, ağac, sümük və parça məmulatı qalıqları və sair tapılmışdır. Ərazidən aşkar olunmuş gil qablar İran və Yaxın Şərq ərazisində aşkar olunmuş orta əsr keramikası ilə yaxınlıq təşkil edir və eyni dövrə aiddir.

Digər tarixi ərazi isə son orta əsr mədəni ərazisi olan Xıncab qəbiristanlığıdır. Bu abidə Kəngərli rayonunun Xıncab kəndindəki təpənin üzərində yerləşir. Ərazidəki qəbirlərin yerüstü əlamətləri itsə də, onların bir çoxunun başdaşı saxlanılmışdır. Əsrlərlə tarixi olan başdaşılarının üzərində turistlər ərəb əlifbası ilə yazıya rast gələ bilərlər. Bəzi qəbirlərin üzərində dördkünc formalı daş yığınlarına rast gəlinir. 2006-cı ildə aparılan araşdırmalar zamanı qəbiristanlıqda xalq arasında sancı daşı adı ilə tanınan sənduqətipli nadir qəbirüstü abidə aşkar olunmuşdur. Abidənin üzərində ərəb əlifbası ilə kitabə və təsvirlər vardır. Hazırda qəbiristanlığın ərazisində orta əsrlərə aid şirli və şirsiz saxsı qabların parçalarına rast gəlmək olar. Qəbir tiplərinə və sinə daşlarına əsasən Xıncab qəbiristanlığını XVI-XVIII əsrlərə aid etmək olar. Qəbiristanlığın bir qismindən XX əsrdə də istifadə olunmuşdur.

XII- XVII əsrlərə aid olan digər qəbiristanlıq isə Naxçıvan şəhərindəki Astabad nekropoludur. Nekropolda müsəlman adəti üzrə dəfn edilmiş insan skeletləri aşkar olunmuşdur. Bəzi qəbirlərin üzərində sənduqə və daş qoç formasında abidə aşkar olunmuşdur. Başdaşıların əksəriyyəti düşmüş və dağılmışdır, bəzilərinin üzərində ərəb qrafikası ilə kitabə günümüzədək gəlib çıxmışdır. Araz su qovşağının tikintisi ilə bağlı olaraq bu tarixi ərazi su altında qalmışdır.







Aza körpüsü Ordubad rayonunun Aza kəndində, Gilançayın üzərində olan memarlıq abidəsidir. Aza kəndi ilə Darkəndi birləşdirən bu körpünün eni 3,5 metr, uzunluğu isə 46 paqonometrdir. Beş aşırımlıdır, qırmızımtıl rəngli yonulmuş yerli dağ daşından inşa edilmişdir. Körpü inşa edilərkən yerləşdiyi ərazi nəzərə alınmış və tağların dördündə dalğakəsən qoyulmuşdur. Hindistan və Çini Qara dəniz sahilləri və Avropa ölkələri ilə birləşdirən mühüm ticarət-karvan yolu üstündə yerləşən Aza körpüsü Böyük İpək Yolu ilə Şərqdən Qərbə və əksinə hərəkət edən ticarət karvanlarının işini asanlaşdırmaq üçün Səfəvi hökmdarı Şah Abbasın dövründə inşa edilmişdir. Qeyd etmək lazımdır ki, buradan keçən bütün ticarət karvanları Naxçıvanın yerli məhsulları olan quru meyvələr, sənətkarlıq məmulatları və ipək geyimləri Avropa bazarlarında təbliğ edərək Qərbi Avropaya ixrac edirdi. Ordubad rayonu ipək geyim və paltarların istehsalına görə dünyanın ən mühüm regionu olmuşdur.

Tarix Azərbaycanın bu regionuna qarşı rəhmsiz olmuşdur. Tarixi hadisələr və təbii fəlakətlər nəticəsində Aza körpüsü dağıdılmış və bir neçə dəfə yenidən təmir olunmuşdur. 1977-ci ildə güclü sel suları körpünün bir hissəsini yuyub dağıtdıqdan sonra körpü əsaslı təmir olunmuşdur. Yerli əhalinin Naxçıvan və Ordubadın digər kəndlərindən Aza kəndinə malların daşınması üçün bu körpüdən istifadə etməsini görmək insana dərin təsir bağışlayır. Körpü XVII əsrə aiddir.

Ordubad rayonunun Gənzə kəndinin mərkəzində arxeoloji ərazi olan Gənzə qəbiristanlığı yerləşir. Arxeoloji ərazidə qəbirlərin əksəriyyətinin yerüstü əlamətləri itmiş və başdaşıları torpağın altında qalmışdır. Qəbiristanlıq qərb və şərq istiqamətlərinə yönəlmiş müsəlman qəbirlərindən ibarətdir. Qəbirlərin bəzisinin ətrafında dördkünc formalı daş düzümləri, bəzilərinin üzərində isə kiçik oval təpəciklər qalmışdır. Qəbirlərin bir neçəsinin başdaşıları yonulmuş, Ordubad rayonu üçün xarakterik olan yaşılımtıl rəngli daşlardan hazırlanmışdır. Turistlər orada dördkünc formalı tağşəkilli sonluqla tamamlanan daş xatirə lövhələri müşahidə edə bilərlər. Həmin başdaşıların üzərində XVI-XVII əsrlərə aid ərəb əlifbası ilə yazılmış kitabələr vardır. Yerli əhalinin deyiminə görə, qəbiristanlığın yerləşdiyi torpaq sahəsi Hacı Hüseynquluya məxsus olmuş və o, bu torpaq sahəsini kənd qəbiristanlığı üçün bağışlamışdır. Qazıntılar zamanı qəbiristanlığın ərazisindən orta əsrlərə aid şirli və şirsiz keramika məmulatları aşkar olunmuşdur. Alimlərin araşdırmaları təsdiq edir ki, qəbiristanlıqda XV əsrdən sonra dəfn mərasimləri keçirilməyə başlanmışdır.

Kəngərli rayonunun Xok kəndi yaxınlığında 2 hektar ərazini əhatə edən Xaraba karvansaray məşhur arxeoloji abidədir. Karvansarayın ərazisində xeyli sayda kərpic qalıqlarına rast gəlinməsi vaxtilə buradakı tikintilərin inşasında bişmiş kərpicdən geniş istifadə olunduğunu göstərir. Hazırda tikililərin yerində dördkünc formalı çalalar və kərpic təpəcikləri qalmışdır. Tikinti qalıqlarına əsasən karvansaray binalarının bir-birinə birləşik yerləşdirilmiş dördkünc formalı tikililərdən ibarət olduğunu demək olar. Yerüstü materiallar başlıca olaraq çəhrayı rəngli şirsiz və şirli keramika parçalarından ibarətdir. Aşkar olunmuş keramika məmulatları başlıca olaraq son orta əsrlər üçün səciyyəvidir. Xaraba karvansaraydan aşkar olunmuş arxeoloji materiallara əsasən demək olar ki, XIV- XVIII əsrlərdə ərazi güclü ticarət marşrutu olmuşdur.

Naxçıvanın bütün mədəni və arxeoloji abidələri qədim mədəni irsin qorunması və möhkəmlənməsində mühüm rol oynayaraq hazırkı Azərbaycan cəmiyyətinin vəziyyətinə müsbət mənada güclü təsir etməkdə davam edir.

**Peter TASE**
**29.10.2016**
***Amerika Birləşmiş Ştatlarının "Eurasia review" və "Foreign Policy News"qəzetləri***

# 50 yaşlı musiqi məktəbi muxtar respublikanın mədəni həyatında mühüm rol oynayır



***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 21 oktyabr 2016-cı il tarixdə "Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, "Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilib. Tədbirlər Planında Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illiyinə həsr olunmuş tədbirin, "Ordubad Şəhər Uşaq Musiqi Məktəbi 50 ildə" mövzusunda konfransın keçirilməsi, məktəbin 50 illik fəaliyyətini əks etdirən nəşrin, tematik verilişlərin və qəzet materiallarının hazırlanması, keçirilən tədbirlərin işıqlandırılması nəzərdə tutulub.***

Dövlətimiz uşaqların, yeniyetmələrin, gənclərin təhsilinə, tərbiyəsinə, geniş dünyagörüşə malik olmalarına, əsl vətəndaş kimi yetişmələrinə xüsusi qayğı göstərir. Bu sahədə muxtar respublikamızda fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin də üzərinə mühüm vəzifələr düşür. Buna görə də musiqimizin, mahiyyət etibarilə, mədəniyyətimizin inkişafı istiqamətində görülən tədbirlər uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini də əhatə edir. Bu gün muxtar respublikamızda 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbinin fəaliyyət göstərməsi müstəqillik illərində bu sahədə həyata keçirilən tədbirlərin davamlı xarakter aldığının göstəricisidir. Təkcə ötən il 4 uşaq musiqi məktəbinin yeni binalarının istifadəyə verilməsi bu sahəyə yüksək diqqət və qayğının ifadəsidir. Muxtar respublikada son illər istifadəyə verilən 2 uşaq musiqi məktəbinin yeni binalarının açılış mərasimində ölkə Prezidenti cənab İlham Əliyev iştirak edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin rolunu yüksək qiymətləndirərək demişdir: ***"Musiqi hər bir xalqın mədəni inkişafının göstəricisidir. Azərbaycan xalqının zəngin xalq yaradıcılığı nümunələri, milli dəyərləri və adət-ənənələri vardır. Bunlar hər xalqa nəsib olmur. Çünki xalq yaradıcılığını, milli dəyərləri ancaq zəngin mədəniyyətə malik olan xalq yarada bilər. Bu gün muxtar respublikada musiqi məktəblərinin yaradılmasında əsas məqsəd xalq yaradıcılığı nümunələrini qoruyaraq gələcək nəsillərə çatdırmaqdan, o cümlədən musiqi mədəniyyətimizin inkişafına töhfələr verməkdən ibarətdir".***

Qədim diyarımızda uşaq musiqi məktəblərinin sırasında öz tarixi və çoxillik fəaliyyəti ilə fərqlənən təhsil ocaqlarından biri də Ordubad Şəhər Uşaq Musiqi Məktəbidir. Bu uşaq musiqi məktəbi rayonda yaradılan ilk, muxtar respublikamızda isə ikinci uşaq musiqi məktəbidir.

Ordubad Şəhər Uşaq Musiqi Məktəbi 1965-ci ilin oktyabr ayında Naxçıvan Şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbinin filialı kimi fəaliyyətə başlayıb. O zaman filiala 60 nəfər, o cümlədən fortepiano şöbəsinə 24 nəfər, klarnet şöbəsinə 12 nəfər və tar şöbəsinə 24 nəfər qəbul edilib. Həmid Qəniyev, Rəsul Məmmədov (not və tar ixtisası üzrə), Lyuba Poltavskaya (fortepiano ixtisası üzrə), Tofiq Tağıyev (klarnet ixtisası üzrə) məktəbin ilk müəllimləri oldular. 1966-cı ilin avqustundan bu təhsil ocağı öz fəaliyyətini müstəqil uşaq musiqi məktəbi kimi davam etdirməyə başlayıb. Ötən bu illər ərzində məktəbi 1600-dən çox məzun bitirib. Məzunların içərisində bu gün də mədəniyyət və incəsənətimizin inkişafı üçün çalışanlar çoxdur.



50 yaşlı təhsil ocağının direktoru Azər Məmmədov bizimlə söhbətində dedi: "Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam məktəbimizin 70 nəfərlik müəllim kollektivində böyük ruh yüksəkliyi yaradıb. Belə böyük qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımızı bildiririk. Kollektivimiz çalışacaq ki, bundan sonra uğurlarımız daha çox olsun. Bunun üçün məktəbdə bütün şərait və imkan var".

Fəaliyyəti dövrü məktəbin nail olduğu inkişafı aydın görmək mümkündür. 4 müəllim və 3 ixtisasla fəaliyyətə başlayan məktəbdə bu gün 70 müəllim 9 ixtisas üzrə gənc nəslə musiqi sahəsində təhsil verir. Hazırda Ordubad Şəhər Uşaq Musiqi Məktəbində 300-ə yaxın şagird təhsil alır.

Söhbət zamanı məktəbin direktoru onu da bildirdi ki, təhsilin keyfiyyəti ən əvvəl müəllimdən asılıdır. Gərək uşaqların musiqi yaradıcılığı təhsili ilə məşğul olan müəllim pedaqoji və psixoloji amilləri, fərdi yanaşma prinsiplərini yaxşı bilsin, uşaqların ürəyini oxumağı bacarsın. Bizim məktəbdə belə işgüzar müəllimlər çoxdur. Onlar çalışırlar ki, şagirdlərimiz yüksək səviyyədə musiqi təhsili ala bilsinlər. Buna görə də məktəbin uğurları getdikcə artır. Məktəbi bitirmiş məzunlarımızdan Naxçıvan Musiqi Kollecinə, Bakı Musiqi Kollecinə, Bakı Musiqi Akademiyasına, Naxçıvan Dövlət Universitetinə qəbul olanlar da çoxdur. Məktəbimizin şagirdləri Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası üzrə keçirilən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin müsabiqələrində uğurlu nəticələr göstərir, diplom və fəxri fərmanlarla təltif edilirlər.



Ordubad Şəhər Uşaq Musiqi Məktəbi bir neçə il qazandığı uğurlara görə muxtar respublika uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri arasında "İlin məktəbi" adına layiq görülüb. Məktəbin müəllimlərindən Kamal Qəniyev (ilin direktoru), Səbinə İbrahimova (ilin xormeysteri), Zülfiyyə Seyidova (ilin müəllimi) və başqalarının qazandığı uğurlar kollektivin çoxsaylı nailiyyətlərinin az bir qismidir. Bu illər ərzində müəllimlərdən fəxri adlara, dövlət mükafatlarına layiq görülənləri də olub ki, bu da onların əməyinə verilən qiymətin ifadəsidir. 2009-cu ilin noyabrında Ordubad Şəhər Uşaq Musiqi Məktəbi üçün 4 mərtəbəli binanın istifadəyə verilməsi, burada hər cür şərait yaradılması məsuliyyətimizi daha da artırıb.

Məktəbdə xalq çalğı və nəfəs alətləri orkestrləri, xor kollektivi, skripkaçalanlar, qarmonçalanlar və nağaraçalanlar ansamblları fəaliyyət göstərir. Bu musiqi kollektivlərinin repertuarında milli musiqimiz, Azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı, dünya musiqisinin görkəmli nümayəndələrinin əsərləri də özünə yer alıb.

*Bu günlər Ordubad Şəhər Uşaq Musiqi Məktəbində bir canlanma var. Məktəbin məşq zallarından, sinif otaqlarından musiqi təranələri ətrafa yayılır. Böyük Üzeyir Hacıbəyovun "Koroğlu" operasından parçalar, muğamlarımızdan nümunələr, xalq mahnıları, bəstəkar mahnıları səslənir. Məktəbdə hamı 50 illik yubileyə hazırlaşır.*

**Əli RZAYEV**

# Məhdud fiziki imkanlı şəxslərin üz tutduğu ünvan

***Muxtar respublikamızda məhdud fiziki imkanlı şəxslərin təhsil alması, intellektual səviyyələrinin yüksəldilməsi, onların cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarının mənalı təşkili daim diqqət mərkəzindədir. Elə bu məqsədə xidmət edən Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində belə şəxslərə informasiya texnologiyaları tədris olunur, görmə qabiliyyəti zəif olanlara bu sahədə bilik və bacarıqlar aşılanır. Bu xidmətlər günü-gündən genişlənir və təkmilləşir. Mərkəzdə eşitmə və danışıq məhdudiyyətli şəxslər üçün daktilo əlifbası üzrə distant dərslər keçilir. Dərsləri Bakı Şəhər Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 3 nömrəli Respublika Xüsusi İnternat Məktəbinin müəllimi tədris edir. Dərslərə 7 eşitmə və danışıq imkanları məhdud şəxs cəlb olunub. Əlavə olaraq mərkəzin kinozalında həftədə iki dəfə həmin kateqoriyadan olan şəxslər üçün subtitrli filmlər nümayiş olunur.***













Burada görmə və eşitmə qabiliyyəti məhdud şəxslərə xüsusi proqram təminatı əsasında audio və elektron kitabxana xidməti göstərilir. Vurğulamaq lazımdır ki, bu xidmətdən ilk dəfə muxtar respublikada yaşayan görmə problemi olan şəxslər istifadə edib. Belə ki, onlar mərkəzdə qeydiyyatdan keçdikdən sonra yaşadıqları ünvanlarda mərkəzin kitabxanasında olan audiokitabları dinləyirlər. Bu qəbildən olan şəxslər xidmətin imkanlarından 24 saat ərzində istifadə edə, iş günləri saat 9⁰⁰-dan 18⁰⁰-a qədər mərkəzin operatorunun köməyindən faydalana bilərlər. Qalan vaxtlarda isə sistem özü avtomatik xidmət göstərir. Xidmətdən eyni anda 30 nəfər istifadə edə bilər. Proqramda 1190 audio əsər yerləşdirilib. İstifadəçi operatorla əlaqə saxlayarkən audio kitabxanada yerləşən kitablar haqqında və dinləyəcəyi audio fayl haqqında ətraflı məlumat ala bilər. Belə faydalı bir xidmətdən istifadəyə ruhlandırmaq üçün xidmətin imkanlarından istifadə zamanı xüsusi fəallıq göstərən şəxslər mükafatlandırılır. Görmə qabiliyyəti məhdud insanlar üçün brayl yazı sisteminin və kompüterin tədrisi kursları da təşkil olunub. Kursa 4 görmə qabiliyyəti məhdud şəxs cəlb edilib.

Digər bir xidmət isə eşitmə qabiliyyəti məhdud şəxslər üçün elektron kitabxana xidmətidir. Mərkəzdə mövcud olan kompüterlərə "pdf" formalı kitablar yerləşdirilib. Hazırda proqramda olan 664 kitabdan istifadə etmək mümkündür. Bununla yanaşı, fiziki imkanları məhdud uşaqlar üçün burada kompüter kursları təşkil olunub. Kurslardan ay ərzində 30 nəfərdən az olmayaraq Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında yaşayan məhdud fiziki imkanlılar istifadə edirlər. Kurslara cəlb olunanlara pulsuz iaşə xidməti göstərilir.

Mərkəzdə autizm və digər sindromlu uşaqlar, habelə bədənini koordinasiya edə bilməyən, ünsiyyət qurmaqda çətinlik çəkən məhdud fiziki imkanlı uşaqlar üçün kinekt oyunları otağı da yaradılıb.

Mərkəzdə Defektoloji bölmə yaradılıb ki, bu bölmənin təşkilində əsas məqsəd muxtar respublikada yaşayan, zehni inkişafın ləngiməsi və nitq qüsurları olan uşaqların reabilitasiyasına nail olmaqla onların cəmiyyətə adaptasiyasını təmin etməkdir. Bölmənin təlim otağı elektron lövhə və digər tədris ləvazimatları ilə təmin edilib. Bölməyə 38 sağlamlıq imkanları məhdud uşaq cəlb olunub.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi də istifadəyə verilib və bu məqsədlə mərkəzdə 2 otaq ayrılıb. Otaqların birində mərkəzi server və çevirici avadanlıqlar, tədris sinfində intellektual-elektron lövhə, kompüter, smart kamera, monitor və digər texniki avadanlıqlar quraşdırılıb. Hazırda 3 müəllim tərəfindən 24 şagirdə ibtidai siniflərin proqramında nəzərdə tutulan fənlər tədris olunur. Şagirdlər videobağlantı vasitəsilə keçilən dərsləri dinləyir və müəllimlərlə birbaşa əlaqə saxlaya bilirlər. Tədris sinfindəki interaktiv lövhə elektron dərsliklərdən və digər multimedia tədris avadanlıqlarından istifadəyə imkan verir. Bu da şagirdlərin daha dərin biliklərə yiyələnməsi və dünyagörüşlərinin formalaşması baxımından mühüm əhəmiyyət kəsb edir.

Burada sağlamlıq imkanları məhdud uşaqlar üçün Əmək terapiyası otağı da yaradılıb. Əmək terapiyasının tikmə-biçmə, kəsib yapışdırma, plastilin işi, rəsm, quraşdırma və sair növləri sağlamlıq imkanları məhdud uşaqlarda əmək qabiliyyətinin inkişafı, həmçinin fiziki və əqli cəhətdən qüsurları olan uşaqlarda onların bu qüsurlarının qismən aradan qaldırılması və ya mövcud əmək qabiliyyətlərinin inkişafı üçün əsas vasitədir. Əmək terapiyası otağı uşaqların əmək terapiyasını həyata keçirmələri üçün lazımi avadanlıqlarla təchiz olunub.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin direktoru Ramin Səfərov bizimlə söhbətində dedi ki, mərkəzin fəaliyyəti üçün hər cür şərait yaradılıb və mövcud olan imkanlar daha da zənginləşdirilir. Mərkəzin internet saytı yaradılıb. Hər bir şəxs, sağlamlıq imkanları məhdud şəxslərin valideynləri buranın fəaliyyəti və keçirilən tədbirlər barədə məlumatları internet saytından əldə edə bilərlər. Eyni zamanda burada əlaqə bölməsi və muxtar respublikada fəaliyyət göstərən tibbi reabilitasiya mərkəzləri barədə məlumatlar da yerləşdirilib.

Ramin Səfərov onu da xüsusi vurğuladı ki, bəzi valideynlər sağlamlıq imkanları məhdud övladlarını evdən çölə çıxarmır, cəmiyyətin onlara ziyan verə biləcəyi düşüncəsi ilə övladlarını ev dustağına çevirirlər. Bu halla razılaşmaq mümkün deyil. Çünki bu qəbildən olan uşaqlar da digərləri kimi cəmiyyətin üzvləridir. Parklarda əylənmək, uşaqlarla oynamaq, müxtəlif məclislərdə iştirak etmək bütün uşaqlar kimi onların da haqqıdır. Qısaca, biz onları evdə televizorun qarşısında deyil, parklardakı yelləncəklərdə, mərkəzimizdə keçirilən tədbirlərdə görmək istəyirik.

Son illərdə bu mövzuda valideynlərin maarifləndirilməsi öz nəticəsini göstərir, onların övladlarına müəyyən mənada köməklik göstərə biləcək mərkəzlərə üz tutmalarına nail olunur.

Psixoloqlar belə iddia edirlər ki, sağlamlıq imkanları məhdud şəxslərin çoxu uşaq yaşlarından evə məhkum edildiklərindən, bu, onlarda zamanla aludəçiliyə çevrilir, qapalılıq yaradır və ən əsası da sonradan valideyn istəsə belə, onların təkidinə baxmayaraq, həmin şəxslər cəmiyyətə, insanlar arasına çıxmağa razılıq vermirlər. Buna görə də hələ ki narahatçılıqlarını tam olaraq dərk etmədikləri balaca yaşlarından onlar insanlarla ünsiyyətdə olmalıdırlar.

Bu sahədə hamımızın üzərinə düşən öhdəliklər var. Belə ki, bu qəbildən olan insanlarla ünsiyyətdən qaçmamalı, onlara qarşı hər hərəkətimizdə daha məsuliyyətli olmalıyıq ki, həssas olan belə insanları incidib, qəlblərini qıracaq hər hansı bir ifadə işlətməyək.

Digər bir öhdəlik isə övladlarını cəmiyyətə çıxarmağa çəkinən valideynləri maarifləndirmək, belə halların zərərverici fəsadlarından danışmaq və onların öz qərarlarında dəyişiklik edərək övladlarını cəmiyyətə, insanların əhatəsinə, əllərindən tutaraq onlara köməklik göstərə biləcək mərkəzlərə, müəssisələrə üz tutmalarına nail ola bilməkdir.

*Əl-ələ verib bu istiqamətdə təbliğat aparsaq, kim bilir neçə insanın taleyini dəyişə bilərik. İnsan hər şeyə qadirdir, təki içimizdə olan o insanlıq hissini oyada bilək. Hər kəs qismən də olsa, bunu bacara bilsə, baxın görün o zaman dünya necə də yaşanması gözəl bir yerə çevrilər.*

**Fatma BABAYEVA**

*İdman xəbərləri*

## Voleybol komandamız Azərbaycan çempionatına qələbə ilə başlayıb



***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə Azərbaycan çempionatının yüksək liqasında birinci dövrənin oyunlarına start verilib.***

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü münasibətilə keçirilən çempionat oyunlarında "Neftçi", MOİK, "Lokomotiv", "Nəqliyyatçı", "Sumqayıt" və "Naxçıvan" komandaları mübarizə aparır. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirlikləri, Azərbaycan və Naxçıvan Voleybol federasiyalarının birgə təşkil etdikləri çempionatın ilk dövrəsi 5 turdan ibarət olacaq və oyunlara noyabrın 7-də yekun vurulacaq.

Artıq çempionatın ilk oyunları başa çatıb. Mövsümün açılış matçında meydana "Lokomotiv" və "Nəqliyyatçı" komandaları çıxıb. İlk setdə rəqibini 25:18 hesabı ilə məğlub edən "Lokomotiv" ikinci seti də öz xeyrinə başa vurub – 25:21. Növbəti setdə də üstünlüyü əldən verməyən dəmiryolçular (25:13) meydanı 3:0 hesablı qələbə ilə tərk ediblər.

"Naxçıvan" komandası da Azərbaycan çempionatına qələbə ilə başlayıb. Komandamızın rəqibi isə Sumqayıt voleybolçuları olub. Görüşdə yüksək peşəkarlıq nümayiş etdirən "Naxçıvan" komandası ilk setdə rəqibinə qələbə qazanmağa imkan verməyib – 25:16. İkinci setə bir qədər arxayın çıxan komandamız hesabda geri qalsa da, fərqi azaltmağa müvəffəq olub və ikinci seti 25:19 hesablı qələbə ilə başa vurub. Üçüncü setdə komandamız qələbəsini təmin edib. 25:21 hesablı nəticə "Naxçıvan" komandasına 3:0 hesablı qələbəni bəxş edib.

Günün son oyununda isə "Neftçi" və MOİK üz-üzə gəlib. Görüş "Neftçi"nin qələbəsi ilə yekunlaşıb.

İkinci turun oyunları bu gün keçiriləcək:

*Saat 12⁰⁰ "Lokomotiv" - "Naxçıvan"*
*Saat 14⁰⁰ "Neftçi" - "Nəqliyyatçı"*
*Saat 16⁰⁰ "Sumqayıt" - MOİK*

## Kikboksinq üzrə muxtar respublika birinciliyinə start verilib

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş kikboksinq üzrə gənclər və böyüklər arasında Naxçıvan Muxtar Respublika birinciliyinə start verilib.***



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Şərq Döyüşü Sənəti Federasiyasının birgə təşkil etdiyi birincilik şəxsi və komandalı xarakter daşıyır. Kikboksinqin WAKO versiyasının qaydalarına uyğun olaraq layt kontakt üslubunda keçirilən birincilikdə 100-ə yaxın idmançı qüvvəsini sınayır. Gənclərin mübarizəsində idmançılar rinqdə 7 çəki (45, 48, 51, 54, 57, 63,5 və 67 kiloqram) dərəcəsində döyüşürlər. İki gün davam edəcək birincilikdə böyüklər 60, 85 və 90 kiloqram çəki dərəcələrində qalibi müəyyənləşdirməyə çalışacaqlar.

Fəxri kürsüdə ilk 3 pillənin sahiblərinə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin diplomları, Şərq Döyüşü Sənəti Federasiyasının isə hədiyyələri təqdim olunacaq.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 822